

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 33 (22.944)

17 fevral 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2018-ci ilin oktyabrında Babək rayonunun təşkil olunmasının 40 illiyi tamam olur.

Ötən əsrin 70-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq xətti Azərbaycanın regionlarını da əhatə etmiş, Naxçıvan Muxtar Respublikasında yeni rayonun yaradılması qərara alınmışdı. 1978-ci il oktyabrın 23-də təşkil olunmuş rayona xalq qəhrəmanı Babəkin adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim azərbaycançılıq mövqeyində dayanması istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsi idi.

Yarandığı gündən ötən dövr ərzində Babək rayonu böyük inkişaf yolu keçmişdir. Hazırda rayonun əksər kəndlərində kompleks quruculuq işləri aparılmış, rayon ərazisi elektrik enerjisi və təbii qazla, poçt, geniş zolaqlı və simsiz internet xidmətləri ilə təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli Sərəncamına əsasən Hacıvar-Vayxır-Sirab, 2014-cü il 27 avqust tarixli Sərəncamına əsasən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu, həmçinin Yarımca-Qahab-Nəcəfəli Dizə-Naxışnərgiz avtomobil yolu yenidən qurulmuşdur. Rayon mərkəzi ilə yanaşı, kəndlərdə də təhsil, səhiyyə, mədəniyyət müəssisələri, inzibati binalar və xidmət sahələri tikilərək istifadəyə verilmişdir.

Babək rayonu muxtar respublika iqtisadiyyatının inkişafında da mühüm rol oynayır. Rayonda müxtəlif profilli yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması sənayenin inkişafını təmin etmişdir. Fermer və torpaq mülkiyyətçilərinə maliyyə dəstəyinin artırılması, müxtəlif güzəştlərin tətbiqi, texnika və avadanlıqlarla təminatın yaxşılaşdırılması, meliorasiya tədbirlərinin gücləndirilməsi, yeni açıq və qapalı su xətlərinin çəkilməsi kənd təsərrüfatının inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Rayonda həyata keçirilən infrastruktur tədbirləri, ətraf mühitin qorunması, əhali məşğulluğunun təmin olunması demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, rayon əhalisinin sayı 1978-ci illə müqayisədə 2018-ci ildə iki dəfəyə yaxın artaraq 75 min nəfər olmuşdur.

Babək rayonunun yaradılmasının tarixi əhəmiyyətini, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafındakı rolunu nəzərə alaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Babək rayonunun yaradılmasının 40 illiyi Naxçıvan Muxtar Respublikasında qeyd olunsun.

2. "Babək rayonunun 40 illiyinin keçirilməsinə dair Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 fevral 2018-ci il*

## Pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib

***"Naxçıvan" Universitetinin Pedaqoji və Xarici dillər fakültələrinin əyani şöbə üzrə təhsil alan tələbələrinin 2017-2018-ci tədris ilinin yaz semestrində keçəcəkləri pedaqoji təcrübənin başlanğıc konfransı olub.***



Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, pedaqoji təcrübə tələbələrin ali təhsil zamanı aldıqları nəzəri bilikləri tətbiq etmələri, pedaqoji mühitə uyğunlaşmaları, pedaqoji prosesi dərindən mənimsəmələri baxımından mühüm əhəmiyyət kəsb edir. Rektor ümumtəhsil məktəbləri ilə əməkdaşlığın möhkəmlənməsinə, yüksəkixtisaslı kadr hazırlığına xidmət edən pedaqoji təcrübə zamanı məsuliyyət və nizam-intizamın vacib amil olmasından bəhs edib, dərslərin informasiya-kommunikasiya texnologiyaları vasitəsilə keçilməsi, tərbiyəvi tədbirlərin təşkili ilə bağlı tövsiyələrini çatdırıb.

Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli təhsil strategiyasının bugünkü uğurlarından, bu siyasətin muxtar respublikada uğurla davam etdirilməsindən, elm və təhsilin inkişafına hərtərəfli dövlət qayğısı göstərilməsindən danışıb. Bildirilib ki, "Naxçıvan" Universiteti də bu qayğıdan bəhrələnən müasirtipli təhsil ocağıdır. Pedaqoji təcrübə ali məktəbin tədris planında zəruri bir prosesdir, eyni zamanda bütövlükdə professor-müəllim heyətinin müəyyən mərhələ üzrə elmi-pedaqoji əməyinin nəticələrini göstərəcək bir vasitədir. Nazir çıxışının sonunda növbəti pedaqoji təcrübənin də gənclərin qocaman pedaqoqların zəngin və nümunəvi iş təcrübələrini öyrənmələri, eləcə də gələcəyin mükəmməl pedaqoqları kimi yetişmələri baxımından faydalı olacağına əminliyini bildirib.

Sonra universitetin Xarici dillər fakültəsinin dekanı Yasin Babazadənin, Pedaqoji faklütənin dekan müavini Nazim Mahmudovun, Pedaqogika və psixologiya kafedrasının müdiri Nəzakət Yusifovanın, metodist Tural Paşayevin və ali təhsil ocağının tərbiyə işləri üzrə prorektoru Əli Yusifovun çıxışları dinlənilib. Çıxışlarda vurğulanıb ki, ümumilikdə, 112 tələbə Heydər Əliyev adına tam orta məktəbdə, 8 və 15 nömrəli tam orta məktəblərdə 7 həftəlik təcrübə keçəcəklər.

Diqqətə çatdırılıb ki, təcrübə zamanı ixtisas metodistləri mütəmadi olaraq məktəblərdə olmalı, tələbələrə lazımi tövsiyələr verməli, dərslərdə iştirak etməli və sınaq dərsin müzakirəsini keçirməlidirlər. Tələbələr təsdiq olunmuş cədvəl üzrə dərsə başlamazdan əvvəl icmalı hazırlamalı, ixtisas metodisti və fənn müəllimi tərəfindən yoxlanılıb razılıq verildikdən sonra dərsi tədris etməlidirlər.

**Nuray ƏSGƏROVA**

## Müasir BTR-82A zirehli transportyorları Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına daxil edilib





Güclü silahı, zirehli müdafiəsi və yüksək manevr qabiliyyəti olan BTR-82A zirehli transportyoru döyüş meydanında piyadaların hərəkət imkanlarını və mobilliyini artırmaq, döyüş fəaliyyətlərini atəşlə təmin etmək, düşmənin müxtəlif silah sistemlərinə qarşı effektiv mübarizə aparmaq, canlı qüvvəsini və hava hədəflərini məhv etmək, ekipajın atıcı silahlardan, mina və mərmi qəlpələrindən, kütləvi qırğın silahlarından qorunması məqsədilə təyin olunub.

Rusiyanın "Hərbi Sənaye Kompleksi" müəssisəsi tərəfindən istehsal olunan BTR-82A zirehli transportyoru öz sələflərini döyüş və texniki xüsusiyyətlərinə görə praktik olaraq iki dəfədən çox üstələyir. Əvvəlki nəsil zirehli transportyorlardan fərqli olaraq BTR-82A daha güclü mühərriklə təmin olunub, zirehi gücləndirilib, kondisioner, beşinci nəsil müasir rabitə vasitələri ilə təchiz edilib.

Zirehli transportyorun məsafədən idarə olunan döyüş moduluna əsas silah kimi 30 millimetrlik 2A72 avtomat top və ikinci silah kimi 7.62 millimetrlik PKTM pulemyotu daxildir. Maşının heyəti 3, desant tutumu 7 nəfər, döyüş ağırlığı 16 tondur. Zirehli transportyor 300 at gücünə malik mühərriklə təchiz edilib.

*Böyük atəş imkanları və dağlıq şəraitdə yüksək keçid qabiliyyətinə malik zirehli transportyorların döyüşə hazır vəziyyətə gətirilməsi məqsədilə gecə və gündüz şəraitində keçirilən məşqlərdə bütün tapşırıqlar uğurla icra olunub.*

**Nəriman NƏCƏFOV**

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncamına müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən Sərəncamın şamil olunduğu hər bir pensiyaçının pensiyasına müvafiq artımların hesablanması başa çatdırılmışdır.***

## Pensiyalar artımla ödənilmişdir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri təşkil olunub. Lokal şəbəkələrin mərkəzi informasiya sistemlərinə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsinin formalaşdırılması və yeni proqram təminatları ilə təmin edilməsi nəticəsində, ölkə başçısı tərəfindən imzalanmış bu sərəncam qısa müddətdə icra edilmişdir. Nəticədə, muxtar respublika üzrə 47 min 994 nəfər əmək pensiyaçısının pensiyasının ümumi məbləği və 168 min 935 nəfər sığortaolunanın fərdi uçot sistemindəki fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri 2017-ci ilin orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2018-ci il yanvarın 1-dən 5,7 faiz indeksləşdirilərək artırılmışdır.

Məlumat üçün bildirək ki, muxtar respublika üzrə bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar, 2018-ci il fevral ayının 16-da yanvar və fevral aylarındakı artımlarla birgə əmək pensiyaçılarına ödənilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## "Naxtel" MMC fəaliyyətinin ilk ilini uğurla başa vurub

İnformasiya-kommunikasiya texnologiyaları (İKT) inkişaf etdikcə insanların ondan istifadə etməsi üçün yeni imkanlar yaranır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda muxtar respublikamızda İKT-nin inkişafı xəttinin də müəyyənləşdirilməsi bu sahədə nailiyyətlərin əldə olunması üçün stimul yaradıb.

Ötən il Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin birgə müəssisəsi olan "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətin fəaliyyətə başlaması muxtar respublikamızda yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi baxımından İKT-nin uğuru hesab oluna bilər.

"Naxtel" MMC-nin fəaliyyətinin ilk ilində apardığı məqsədyönlü tədbirlər və yüksəkkeyfiyyətli xidmət sayəsində 4-cü nəsil Naxtel operatorunun istifadəçi sayı il ərzində 20 min 700 nəfər artaraq hazırda 30 minə yaxınlaşıb. Bank ödəniş və qəbul terminallarında Naxtelin sim kartlarından kanal yaradıcı vasitə kimi istifadə olunması və hesabat sisteminin təkmilləşdirilməsi üçün müvafiq işlər icra olunub, 120 POS-terminal və 10 bankomatda Naxtel sim kartlarından istifadə olunması təmin edilib.

Bu gün digər operatorlardan fərqli olaraq muxtar respublikanın bütün yaşayış ərazilərini genişzolaqlı data xidmətləri ilə təmin edə bilən 4-cü nəsil Naxtel operatoru mobil bankçılıq və bank əməliyyatları sektorunda geniş texniki imkanlara malikdir. Naxtelin beynəlxalq rominq əlaqələrinin qurulması sahəsində də işlər davam etdirilir. Hazırda Gürcüstan Respublikasında Naxtelin rominq xidməti işə salınmış, digər 10 ölkə üzrə test sınaq işləri həyata keçirilir.

**Xəbərlər şöbəsi**

**Muxtar respublikamızın davamlı inkişafı paytaxt Naxçıvan şəhəri də daxil olmaqla, bütün bölgələrin simasını dəyişmiş, insanların rahat yaşayış şəraitini təmin etmişdir. Regionun quruculuq salnaməsinin səhifələrində diyarın ən gənc bölgəsi olan Kəngərli rayonunun da öz yeri var. Yaradılmasına 14 il bundan əvvəl qərar verilmiş bu qədim rayon Naxçıvanın tarixində mühüm izi olan kəngərlilərin adını yaşatmaqla bərabər, həm də müstəqillik dövründə Azərbaycanda həyata vəsiqə almış ərazi vahidi kimi tarixin yaddaşına keçib. Bir zamanlar heç bir infrastrukturu olmayan, çöllük ərazilərdən ibarət indiki rayon mərkəzi ötən dövrdə görülmüş böyük işlərin nəticəsində müasir yaşayış məntəqəsinə çevrilib. Naxçıvan-Sədərək magistral yolunun üzərində yerləşən rayon mərkəzindəki ümummilli liderin abidəsi bir-birindən gözəl inzibati binalar, rahat yollar, mədəniyyət və istirahət parkı, mədəniyyət evi və digər ünvanlar indi bu əraziyə möhtəşəm bir gözəllik bəxş edir.**



*İnkişaf edən bölgələrimiz*

# Kəngərli rayonu ötən ili mühüm nailiyyətlərlə başa vurub









Qıvraq qəsəbəsi də daxil olmaqla, rayonun bütün yaşayış məntəqələrinin abadlaşdırılması, burada müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsi, rayondaxili və kəndarası avtomobil yollarının yenidən qurulması, yaşıllıq zolaqlarının yaradılması Kəngərli rayonunda həyata keçirilən mühüm tədbirlərin əsasını təşkil edir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunda yenidən qurulan yol yaşayış məntəqələri arasında daha tez, asan və təhlükəsiz nəqliyyat əlaqəsinin olmasına öz töhfəsini verib. Belə ki, uzunluğu 39 kilometr olan və 13 min nəfərə yaxın əhalinin yaşadığı 5 kənd yaşayış məntəqəsini birləşdirən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qarabağlar-Yurdçu-Qıvraq (Xıncab da əlavə yolla birləşməklə) dairəvi avtomobil yolu adıçəkilən kəndlərə gediş-gəlişi xeyli asan və rahat edib. Həyata keçirilən bu quruculuq tədbiri sakinlərin sevincinə səbəb olub. Belə tədbirlər ötən il də uğurla davam etdirilib.

Kəngərli rayonunun quruculuq mənzərəsinə nəzər salsaq, görərik ki, 2017-ci ildə bu bölgəyə investisiya qoyuluşları dinamik inkişafı sürətləndirən mühüm amillərdən olub. Bu istiqamətdə ötən il bütün maliyyə mənbələrindən əsas kapitala 41 milyon 208 min 300 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,6 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 38 milyon 636 min 700 manatı və ya 93,8 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir. Rayon Statistika İdarəsindən verilən məlumata görə, 2017-ci ildə Kəngərli rayonunda 21 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 7 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri, eyni zamanda bir yaşayış binasının tikintisi də davam etdirilib.

Qeyd edək ki, rayonda əhalinin həyat səviyyəsinin ildən-ilə yaxşılaşması sakinlər tərəfindən fərdi yaşayış evlərinin tikintisinə də öz təsirini göstərib. Ötən ildə əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 14 min 693 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da 2016-cı ildəki göstəricidən çoxdur. Eyni zamanda 2017-ci ildə Kəngərli rayonunda meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsi diqqət mərkəzində saxlanılıb, Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi və suvarma boru xəttinin bərpası başa çatdırılıb.

Təbii ki, Naxçıvan Muxtar Respublikası aqrar region olduğundan kənd təsərrüfatının hərtərəfli inkişaf etdirilməsi də rayonda diqqətdə saxlanılan məsələlərdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamı ötən dövrdə rayonda əkinçiliyin inkişafına stimul verib, torpaq mülkiyyətçilərinin əzmini daha da artırıb. 2017-ci ilin məhsulu üçün rayonda 8261 hektar sahədə əkin aparılıb. Bu da 2016-cı ilin məhsulu üçün əkilmiş sahədən 5 hektar çoxdur.

Taxılçılıq bu bölgədə ən üstün istiqamət kimi diqqət mərkəzindədir. Ötən ilin məhsulu üçün 4364 hektar sahədə taxıl əkilib ki, bunun da 2314 hektarını buğda, 2050 hektarını isə arpa təşkil edib. 2016-cı illə müqayisədə taxıl əkini sahəsi 399 hektar artıb. Ümumilikdə isə 2017-ci ildə taxıl zəmilərindən 12 min 134 ton məhsul toplanılıb.

Torpaq mülkiyyətçilərinin ötən il diqqət göstərdiyi əkin növlərindən biri də qarğıdalı olub. 2017-ci ildə 249 hektar sahədə qarğıdalı əkini aparılıb, zəmilərdən 1506 ton məhsul yığılıb. Bu məhsulun tədarükü əvvəlki illə müqayisədə 78,2 faiz artıb. Yaradılmış şərait, torpaq mülkiyyətçilərinə hərtərəfli dəstək, onların lazımi biçin avadanlıqları ilə təmin olunması məhsulun vaxtında sahələrdən toplanmasına imkan verib. Bundan əlavə, kartof tədarükündə də 2016-cı illə müqayisədə 8,4 faiz artım müşahidə olunub. Belə ki, ötən ildə 234 hektar sahədə kartof əkini aparılıb ki, bu da 2016-cı ildə əkilmiş sahədən 18 hekar çoxdur. Sahələrdən isə 3192 ton kartof yığılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası Kəngərli rayonunda əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradıb. 2017-ci ildə meyvə istehsalı bir il öncəyə nisbətən 1,1 faiz, tərəvəz istehsalı isə 3,1 faiz artıb. Bununla yanaşı, yaşıllaşdırma, o cümlədən yeni meyvə bağlarının salınması tədbirləri də uğurla davam etdirilib. Belə ki, rayonda meşə fondunun mühafizə olunması, bərpası, yeni meşəliklərin salınması istiqamətində ötən ilin əvvəlindən 41 hektar sahədə meşəsalma və 10,7 hektarda meşəbərpa işləri aparılmış, ümumilikdə, rayonun müxtəlif yerlərində 24 min 956 ədəd meyvə, o cümlədən 9 min 400 ədəd badam tingi, 3 min 360 ədəd meşə ağacı, 3 min 37 ədəd dekorativ ağac əkilmişdir.

Hamımıza məlumdur ki, ötən il muxtar respublikamızda tütünçülüyün inkişaf etdirilməsi məqsədilə bir sıra addımlar atılıb. Bu sahədə görülən işlərin nəticəsidir ki, 2017-ci ildə Kəngərli rayonunda "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni Tütün Yetişdirmə Təsərrüfatı yaradılıb. 2,5 hektar ərazini əhatə edən Tütün Yetişdirmə Təsərrüfatında şitil yetişdirmək üçün 2304 kvadratmetr sahəsi olan 5 istixana, yeraltı su anbarı, 1350 kvadratmetr sahədə tütün qurutma yeri və 420 kvadratmetr sahəsi olan 2 anbar yaradılıb, müxtəlif texnika və texnoloji avadanlıqlar alınıb. İlkin olaraq 9 hektar sahədə tütün əkini aparılıb. 2017-ci ildə 9 hektar sahədən 11,1 ton qurudulmuş tütün tədarük olunub.

Son illərdə Kəngərli rayonunda kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın da inkişafı diqqət mərkəzində saxlanılır. Bu sahəyə marağın ildən-ilə artması bu aqrar sektorda qazanılmış uğurların əsasını təşkil edir. Rayon Statistika İdarəsinin məlumatına görə, 1 yanvar 2018-ci il tarixə bütün təsərrüfat kateqoriyalarında iribuynuzluların sayı 8 min 397, xırdabuynuzluların sayı isə 96 min 547 baş olmuşdur ki, bu da 1 yanvar 2017-ci il tarixə olan göstəriciləri müvafiq olaraq 1,3 və 1,5 faiz üstələmişdir. Eyni zamanda həmin tarixə Kəngərli rayonunda arı ailələrinin sayı 1625-ə çatdırılmışdır ki, bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. 2017-ci ildə bal istehsalı bir il əvvələ nisbətən 5,1 faiz artaraq 41 ton təşkil etmişdir. Ümumilikdə isə ötən il rayonda 44 milyon 258 min 700 manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da 2016-cı ildəki göstəricidən 4,5 faiz çoxdur.

Kəngərli rayonu aqrar region olmasına baxmayaraq, bu bölgə, həm də sənaye məhsullarının istehsalı baxımından diqqətçəkicidir. Əvvəlki illərdə olduğu kimi, ötən ildə də rayonda yeni istehsal və xidmət sahələrinin yaradılması sənaye sahəsinin dinamik inkişafını təmin etmiş, məhsul istehsalı artmışdır. 2017-ci ildə rayonda 16 milyon 771 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ildəki göstəricidən 1,3 faiz çoxdur.

Muxtar respublikamızda əhalinin məşğulluğunun təmin edilməsi hər zaman prioritet sahələrdən olub. İndiyədək bununla bağlı müxtəlif dövlət proqramları qəbul edilərək uğurla icra olunub. Hazırda isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası Kəngərli rayonunda işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmaqdadır. Bu istiqamətdə görülən işlər ötən il də uğurla davam etdirilib. 2017-ci ildə Kəngərli rayonunda 197 yeni iş yeri yaradılıb ki, bunun da 193-ü və ya 98 faizi daimi iş yerləridir.

Təbii ki, əldə olunmuş nailiyyətləri rayonda təhsil, səhiyyə, mədəniyyət, sosial təminat, nəqliyyat, rabitə sahələrinin simasında da görmək mümkündür. Lakin ümumi olaraq qeyd edək ki, təhsil sahəsi üzrə infrastruktur quruculuğu tədbirləri çərçivəsində ötən il Qıvraq qəsəbəsində 224 yerlik uşaq bağçası tikilərək istifadəyə verilib. İdmana göstərilən dövlət qayğısının, həmçinin Kəngərli rayonunda bədən tərbiyəsi və idmanın inkişafı üzrə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi kimi bəhs olunan dövrdə Qarabağlar kəndində kikboksinq bölməsi fəaliyyətə başlayıb. Mədəni quruculuq sahəsində aparılan kompleks işlərin davamı olaraq rayonun Şahtaxtı kəndində Şahtaxtinskilər Muzeyinin yenidən qurulması başa çatdırılıb, Qarabağlar kəndində isə Qarabağlar Türbə Kompleksinin bərpası davam etdirilib.

Vurğulamaq lazımdır ki, yaradıldığı gündən indiyədək görülən işlər nəticəsində Kəngərlinin sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş verib, bir sıra mühüm infrastruktur layihələri reallaşdırılıb. Təhsil, səhiyyə, idman, mədəniyyət müəssisələri və digər sosialyönümlü obyektlər tikilərək vətəndaşların istifadəsinə verilib. 2006-cı ilin iyul ayında Kəngərli Rayon İcra Hakimiyyətinin inzibati binasının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu rayonun yaradılması ilə bölgədə bir çox məsələlər həll olunmuşdur. Artıq rayonun öz büdcəsi var, yeni yaradılmış idarələrdə mindən çox iş yeri açılmışdır. Beləliklə, bu rayonda yaşayan əksər ailələrin heç olmasa bir üzvü işlə təmin edilmişdir. Onların işlə təmin edilməsi ailədə də sabitliyin yaranması deməkdir. Yeni rayonun yaradılması bu bölgənin iqtisadiyyatına, gələcəkdə onun daha da möhkəmlənməsinə, ailələrin məskunlaşmasına kömək edəcəkdir. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının səviyyəsinə çatacaqdır".***

*Bu gün fəxrlə demək olar ki, Kəngərli muxtar respublikanın inkişaf etmiş rayonları sırasındadır. Bu bölgədə inkişaf və yüksəliş davamlı xarakter alıb. Rayon sakinlərinin əhval-ruhiyyəsi də yaradılan bu şərait hesabına daha da yüksəlib, insanların sabaha olan inamı artıb. Bu inamın əsasını isə ulu öndər Heydər Əliyevin siyasi yoluna dönməzlik, insanların doğma yurduna böyük sevgisi təşkil edir.*

**Səbuhi HƏSƏNOV**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 15 fevral tarixdə imzaladığı “Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında” Sərəncama əsasən tikiləcək xalça istehsalı emalatxanasında Naxçıvan xalçaçıları üçün əlverişli şərait yaradılacaq, keçmişdən günümüzə gələn bu ənənəyə uzunömürlülük bəxş ediləcəkdir. Belə bir emalatxananın istifadəyə verilməsi yeni iş yerlərinin açılması ilə yanaşı, həm də yeni xalçaçılar nəslinin formalaşmasına rəvac verəcək. Ən əsası, evlərimizi keyfiyyətli, nəfis Naxçıvan xalçaları bəzəyəcək.*

# Yaşadılan el sənəti: xalçaçılıq

## Xalça istehsalı emalatxanasının tikintisi ilə bağlı verilən sərəncam Naxçıvanda bu qədim el sənətinin yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olacaq





“Kültəpə” adlı qədim yaşayış yerində aparılan arxeoloji qazıntılar nəticəsində Neolit və Eneolit dövrlərinə aid iy və cəhrənin, Tunc dövrünə aid sadə toxuculuq dəzgahının tapılması Naxçıvan diyarında yaşayan əhalinin toxuculuqla hələ qədim dövrlərdən məşğul olmasını sübut edir. Erkən orta əsrlər dövründən müstəqil fəaliyyət sahəsinə çevrilən xalçaçılıq sonrakı dövrlərdə Azərbaycan qadınlarının əsas məşğuliyyət sahələrindən birinə çevrilmişdir. X-XIII əsrlərə aid mənbələr Azərbaycanın bir çox bölgələri ilə yanaşı, Naxçıvanı da əsas xalçaçılıq mərkəzi kimi xarakterizə edir.

Naxçıvanda xalça istehsalı XVIII əsrdən başlayaraq daha yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Xarici bazarlarda xalça məmulatlarına tələbatın kəskin şəkildə artması bu sənət sahəsinin, xüsusilə XIX əsrdə daha geniş vüsət almasına gətirib çıxarmışdı. XIX əsrin ortalarına aid statistik məlumatlardan aydın olur ki, bu dövrdə Naxçıvan diyarında xeyli miqdarda xovlu və xovsuz xalça məmulatları istehsal edilmişdi. Belə ki, 1845-ci ilə aid statistik məlumatda göstərilir ki, həmin il burada 1050 xalça, 3000 at çulu, 2500 keçə, 5000 çuval, 460 məfrəş toxunmuşdur. Naxçıvan diyarında XVIII-XIX əsrlərdə toxunmuş xeyli sayda xalça məmulatları nümunəsi dövrümüzə qədər gəlib çatmışdır. Həmin nümunələrin bəziləri bu gün Naxçıvan Dövlət Xalça Muzeyi ilə yanaşı, Naxçıvan Dövlət Tarix Muzeyinin və bölgələrdəki tarix-diyarşünaslıq muzeylərinin ekspozisiyalarını bəzəyir.

“Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri, professor Vidadi Muradovun rəhbərliyi ilə aparılan çöl tədqiqatları zamanı Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Sədərək, Ordubad, Şahbuz və Şərur rayonlarında toxunaraq şəxsi kolleksiyalarda saxlanılan yun xovlu xalçalar, namazlıqlar, yun xovsuz zililər, duz torbaları, xurcunlar, məfrəş üzü, şəddə və kilim aşkarlanaraq elmi ictimaiyyətə təqdim edilmişdir. Tədqiqat zamanı aydın olmuşdur ki, şəxsi kolleksiyalarda saxlanılan Naxçıvan qrupuna aid olan ən qədim xovlu xalça 1800-cü ildə Şərur rayonunun Maxta kəndində toxunmuşdur. Belə faktları kifayət qədər sadalamaq olar ki, bütün bunlar da Naxçıvanda xalçaçılığın tarixən uzun bir inkişaf yolu keçdiyini göstərir.

Ta qədim zamanlardan Naxçıvanda gəlinin cehizliyini ana-nənələrimizin toxuduğu qalın, milli ornamentli xalçalar bəzəyib. Bu gün də Naxçıvan kəndlərində evlərdə kifayət qədər belə xalçalara rast gəlmək olar. Rəngini itirməyən bu dəyərli sənət nümunələri elə yaşını da bu gözəl rəng çalarlarında gizləyib. Nənələrimizin barmaqlarının sığalı, gözlərinin nuru, ürəklərinin hərarəti ilə toxunan bu xalçalar həm də adət-ənənələrimizin keşikçisi rolunu oynayıb. Evdən-evə daşınıb, əzizlənib, qorunub. Azərbaycan qadınının həm də zəhmətkeşliyinin bir nümunəsinə çevrilən bu xalçalar, adətən, təsərrüfat işlərindən sonra gecələr lampa işığında toxunardı. Elə olardı ki, bunun üçün bəzən ana-nənələrimiz səhərə qədər yatmazdılar. Əsasən də uzun qış gecələrində ərsəyə gələn belə xalçaların toxunmasına qızlar kiçik yaşlarından böyük maraq göstərər, çox erkən yaşlarından xalça toxumağı öyrənərdilər. Məhz bu səbəbdəndir ki, bu gün də muxtar respublikanın istənilən bölgəsində bu sənəti bilən qadınlar, qızlar az deyil.

Təəssüflə deməliyik ki, 90-cı illərin ağır zamanlarında sənətkarlığın digər sahələrində olduğu kimi, xalçaçılıq sahəsində də durğunluq yaşandı. Evlərdəki cəhrələr, daraqlar, hanalar, kirkid və digər toxuculuq alətləri zirzəmilərə daşındı.

Müstəqilliyin ilk illərində xalçaçılıq sənətini, xalçaçılıq məmulatlarımızı, ümumilikdə, Naxçıvanın nəfis xalçalarını qorumaq, yaşatmaq, gələcək nəsillərə ötürmək məqsədilə bir sıra əhəmiyyətli tədbirlər görüldü. Belə tədbirlərdən biri də Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılması oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində 1998-ci ildə yaradılan və ildən-ilə eksponatlarının sayı artan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni binaya köçürüldü. Muzeyin üç dildə internet saytı istifadəyə verildi. Bu da dünyanın hər yerində muzeyi virtual ziyarət etməyə, ziyarətçilərin ekspozisiyadakı eksponatlarla bağlı məlumatlar almalarına, həmçinin tarixi keçmişimizi öyrənmələrinə imkan yaradıb. Bu gün muzeyi ziyarət edən hər kəs Naxçıvan xalçaçılıq məktəbinə aid nəfis xalçalarla tanış olur. Xalçanın ibtidai forması olan həsirdən başlamış keçə, kilim, palaz, cecim, vərni, şəddə, zili və digər xovlu və xovsuz xalça nümunələri, keçmişdə məişətdə geniş şəkildə istifadə olunmuş xurcun, məfrəş, çuval, heybə kimi xalçaçılıq, kirkid, həvə, cəhrə, daraq, qayçı, hana kimi toxuculuq alətləri Naxçıvanda xalçaçılığın zəngin tarixindən xəbər verir. Hazırda muzeydə 3429 eksponat var.

Müstəqillik illərində muxtar respublikada xalçaçılıq sənətinin qorunması, yaşadılması naminə görülən işlər Xalça Muzeyinin istifadəyə verilməsi ilə məhdudlaşmamış, Naxçıvan xalçaçılıq məktəbinin öyrənilməsi istiqamətində bir sıra təşkilati işlər görülmüşdür. Belə ki, peşə məktəblərində xalçaçılıq kursları, Naxçıvan Qızlar Liseyində “Tikiş, toxuculuq və xalçaçılıq” dərnəyi açılmış, “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunması təşkil olunmuşdur. Xalq yaradıcılığı emalatxanasında, dərnəklərdə toxunan xalçalar neçə illərdir ki, keçirilən festivalları, milli bayramlarımızla əlaqədar təşkil olunan şənlikləri bəzəyir.

Bu illər ərzində öz sənətini sevən çoxlu xalçaçı da yetişib. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda təsviri incəsənət ixtisasları üzrə təhsil alan tələbələrə də Naxçıvan xalçaçılıq məktəbinin ənənələri öyrədilir. Muxtar respublikanın şəhər və rayonlarında “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” devizi altında evlərdə xalçaların toxunması işi həyata keçirilir. Bu, qadınların məşğulluğunu təmin etməklə yanaşı, həm də xalçaçılıq sənətinin yaşadılması istiqamətində atılan ən mühüm addımlardan biridir.

Ötən dövr ərzində Naxçıvan xalçaçılıq məktəbinin tədqiq olunması, sənədli filmlərin və yeni nəşrlərin hazırlanması da diqqətdə saxlanılıb. “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti tərəfindən “Naxçıvan xalçaçıları” kitabının, “Azərbaycan xalçaları – Naxçıvan qrupu” jurnalının çap olunması, “Naxçıvan xalçaları” sənədli filminin hazırlanması xalçaların toxuma üsullarının öyrənilməsində, xalçaçılıq məktəbi ənənələrinin gələcək nəsillərə çatdırılmasında dəyərli nəşrlər və informasiya mənbələridir. 2018-ci il yanvarın 26-da Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılmasının 20 illiyində AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin və “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri, professor Vidadi Muradovun birgə müəllifliyi ilə nəşr olunmuş “Naxçıvan xalçaçılığı: ənənə və müasirlik” kitabının təqdimat mərasimi keçirilib. Bu kitab Naxçıvan xalçaçılıq məktəbinin öyrənilməsində ən dəyərli nəşrlərdən biridir. Buradakı məlumatların Azərbaycan dili ilə yanaşı, ingilis, rus və ərəb dillərində verilməsi Naxçıvan xalçaçılıq məktəbi ilə bağlı elmi-tarixi faktların daha geniş oxucu kütləsinə çatdırılması məqsədinə xidmət edir. Kitabda Naxçıvanın ilkin sivilizasiyadan müasir intibaha qədər keçdiyi yol, siyasi və sosial-iqtisadi inkişaf tarixi, bu qədim diyarda xalçaçılıq məktəbi, xalçaçılıq və boyaqçılığın inkişafı elmi əsaslarla araşdırılıb. “Naxçıvan xalçaçılığı: ənənə və müasirlik” kitabı, nəinki muxtar respublika, ümumilikdə, Azərbaycan tarixinə və mədəniyyətinə dəyərli töhfədir. Kitabda diqqətçəkən məqamlardan biri də 254 xalçaçının fotosu və onlar haqqında məlumatların verilməsidir. Naxçıvan xalçaçılığına dair bu dəyərli mənbədən oxuyuruq: “Naxçıvan diyarının müxtəlif bölgələrində istehsal edilmiş xalça məmulatları öz sənətlərinin kamil ustası olan azərbaycanlı qadınlar tərəfindən toxunurdu. Onlardan XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Naxçıvan qəzasının Cəhri kəndində yaşamış İsmayılova Fərəc Darçın qızının, Piriyeva Qumru Cəfər qızının, Kükü kəndində yaşamış Məmmədova Qönçə Heydər qızının, Kolanı kəndində yaşamış Əsmər Hüseynəli qızının, Ordubadın Nüsnüs kəndində yaşamış Ramazanova Xanpəri Musa qızının adları dövrümüzədək gəlib çatmışdır”. Kitabda adları qeyd olunan xalçaçı qadınlar öz zəhmətkeşlikləri, milli dəyərlərimizə bağlılıqları ilə bu qədim el sənətini sevərək günümüzə qədər çatdıra biliblər.

*Sonda qeyd edək ki, muxtar respublikada xalçaçılığın inkişafı ilə bağlı bu günədək görülən bütün işlər, xüsusilə də ölkə başçısının 2018-ci il 15 fevral tarixli “Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında” Sərəncamı xalçaçılığın bu qədim Nuh yurdunda yeni inkişaf mərhələsinə qədəm qoyacağına zəmanət verir.*

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Televiziyasının baş redaktoru***

# Qara Qarayevin 100 illik yubileyi qeyd edilib





***Fevralın 16-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dünya şöhrətli bəstəkar Qara Qarayevin 100 illik yubileyi qeyd olunub.***

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova tədbirdə çıxış edərək bildirib ki, 2018-ci ilin fevral ayında Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin anadan olmasının 100 illiyi tamam olur. Prezident cənab İlham Əliyev 2017-ci il 17 oktyabr tarixdə “Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyi haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən görkəmli bəstəkarın yubileyi ölkəmizdə müxtəlif mədəni tədbirlərlə qeyd olunur.

Vurğulanıb ki, bəstəkarın dahi Nizami Gəncəvinin eyniadlı poeması əsasında “Yeddi gözəl”, Cənubi Afrika yazıçısı Piter Abrahamsın eyniadlı romanı əsasında yazdığı “İldırımlı yollarla” baletləri, fransız yazıçısı Anri Barbüsün novellası əsasında “Zəriflik” monooperası, Aleksandr Puşkinin şeirlərinə bəstələdiyi “Mən sizi sevirdim” və “Gürcüstan təpələrində” romansları, “Könül mahnısı”, “Səadət mahnısı” kantataları, fransız dramaturqu Edmond Rostanın “Sirano de Berjerak” komediyası əsasında “Çılğın qaskoniyalı” müzikli və digər əsərləri öz orijinallıqları ilə daim yadda qalacaq və seviləcəkdir.

Nazir bildirib ki, Qara Qarayev çağdaş Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzedilməz rolu olan bəstəkardır. O, musiqi tariximizə yeni milli bəstəkarlıq məktəbinin yaradıcısı kimi daxil olub. Onun özünəməxsus, dərin fəlsəfi məzmunu və yüksək professionallığı ilə seçilən əsərləri yalnız Azərbaycanda deyil, keçmiş Sovetlər Birliyində, hətta ABŞ, İngiltərə, Fransa, Almaniya, Misir, Türkiyə, Çexiya, Polşa, Rumıniya və başqa ölkələrdə böyük şöhrət qazanıb və bu gün də konsert proqramlarında, musiqili teatrların repertuarlarında layiqli yer tutmaqdadır.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Əməkdar incəsənət xadimi Yaşar Xəlilov “Qara Qarayev məktəbi” mövzusunda çıxışında deyib ki, bəstəkarın yaradıcılıq məktəbi milli olduğu qədər də ümumbəşəridir. Onun özünəməxsus, bənzərsiz üslubu həmişə diqqəti cəlb edir. Böyük sənətkar həm də əvəzsiz bir novator idi. Bəstəkarın bütün əsərləri orijinaldır, bu gün üçün də, gələcək üçün də müasirliyi ilə seçilir.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Kamera və Xalq Çalğı Alətləri orkestrlərinin, xor kollektivinin ifasında böyük bəstəkarın əsərlərindən ibarət konsert olub. Bədii rəhbəri və baş dirijoru Xalq artisti Çingiz Axundov olan kamera orkestrinin ifasında bəstəkarın “Don Kixot” simfonik qravürlərindən nümunələr, “İldırımlı yollarla”, “Yeddi gözəl” baletlərindən və başqa əsərlərindən seçilmiş ecazkar musiqilər səslənib.

Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestri Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyevin və Samir Əsgərovun dirijorluğu ilə bəstəkarın müxtəlif mövzulu və janrlı musiqi əsərlərini ifa edib. Solistlərdən Azərbaycan Respublikasının Əməkdar artisti Gülyanaq Fərzəliyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elçin Nağıyev və Rahim Əsgərzadənin ifaları alqışlarla qarşılanıb.

Konsert Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Mahirə Əsgərovanın xormeysterliyi ilə bəstəkarın “Böyük xilaskar” kantatası ilə başa çatıb.

**Əli RZAYEV**

## Ekoloji Tərbiyə Mərkəzi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında interaktiv əlaqə yaradılıb





Naxçıvan şəhər 8 nömrəli tam orta məktəb



Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbi

Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri, Naxçıvan Qızlar və Şərur şəhər Fizika-Riyaziyyat Təmayüllü liseyləri arasında ayda bir dəfə olmaqla, interaktiv əlaqə yaradılır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin müəyyən etdiyi qrafikə uyğun olaraq növbəti belə tədbir fevral ayının 16-da təşkil edilib. Dərsin aparıcısı, mərkəzin “Zooekologiyanın əsasları” dərnəyinin rəhbəri Süsən Əliyeva şagirdlərə “Ayrı-ayrı fəsillərdə quş növlərinin dəyişməsi” mövzusunda ətraflı məlumat verib.

Bildirilib ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra ətraf mühitin mühafizəsi sahəsində bir çox beynəlxalq konvensiya və sazişlərə qoşulub, üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində zəruri addımlar atıb. Son illər bu sahədə beynəlxalq təşkilatlarla əlaqələr genişləndirilib, birgə layihələr hazırlanaraq həyata keçirilib, ekoloji tarazlığın təmin edilməsinə, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasına yönəldilmiş bir sıra dövlət proqramlarının icrasına başlanılıb. Nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan flora və fauna növlərinin qorunub saxlanması məqsədilə milli parklar, dövlət təbiət qoruqları və yasaqlıqları yaradılıb.

Qeyd edilib ki, yerdəyişmələrə görə quşlar oturaq, köçəri və uçub gedən növlərə bölünürlər. Azərbaycan faunasına daxil olan 366 quş növündən 344-ü aran və dağətəyi zonalarda yaşayır.

Vurğulanıb ki, muxtar respublikanın ərazisi təbii şəraitinə və heyvanlar aləminin zənginliyinə görə ölkəmizin digər bölgələrindən fərqlənir. Burada olan heyvanların növü, tərkibi və miqdarı Azərbaycan faunasının 60-80 faizini təşkil edir. Muxtar respublikanın heyvanlar aləmi XIX əsrin 2-ci yarısından başlayaraq tədqiq olunur. Faunaya daxil olan quş növündən 147-si oturaq quşlardır. Qonşu ölkələrin heç birində oturaq quşların sayı bu qədər çox deyildir. Vətənimizdə iqlimin nisbətən yumşaq keçməsi və quşların yaşama şəraitinin əlverişli olması onların oturaq həyat sürməsinə imkan verən əsas amillərdəndir.

Diqqətə çatdırılıb ki, bu gün faunamızın qorunmasında məktəblilərin üzərinə də bir sıra vəzifələr düşür. Onlar təbiətimizin mühafizəsində fəallıq göstərməlidirlər. Bu baxımdan məktəblərdə təşkil olunan ekoloji dərnəklər vasitəsilə şagirdlər təbiəti qorumağın nə qədər önəmli olduğunu dərk edir, təbiət qoynunda təşkil olunan açıq məşğələlər zamanı fauna və floramızla yaxından tanış olur, ekoloji biliklərə əyani surətdə yiyələnirlər.

✍ **Nail ƏSGƏROV**

## Sənətinin vurğunu

***Dahi bəstəkar Üzeyir Hacıbəyli qədim milli musiqi alətimiz tar haqqında yazırdı: “Tar Şərq musiqi təhsilini artıra bilən alətlərdən ən qiymətlisi və ən mühümüdür”. Azərbaycan simli musiqi alətləri arasında texniki və dinamik imkanlarına görə müasir tar ən mükəmməl və təkmil çalğı aləti hesab olunur.***



Tar hər zaman muxtar respublikamızda musiqi ifaçılarının maraq dairəsində olub və olmaqdadır. Bu musiqi aləti yaşlı insanlarla yanaşı, həm də gənclər tərəfindən sevilir və ifa olunur. Belə gənc tar ifaçılarımızdan biri də hazırda Naxçıvan Musiqi Kollecində şöbə müdiri vəzifəsində çalışan Fətəli Axundzadədir. O, kollecdə təhsil alan tələbələrə bu musiqi alətini tədris edir. Onunla bu barədə söhbətimiz maraqlı oldu:

*– Fətəli müəllim, sizdə tara maraq necə yaranıb?*

– Məni tarın sehrli səsi ilə hələ körpə ikən babam tanış edib. O, tarda ifa etməyi çox sevərmiş. Mən böyüyəndə babamı görməsəm də, onun evdə “boynubükük” qalmış tarı hər gün gözlərim önündə idi. Sanki tar məni özünə doğru çəkir və ona təkrar həyat verilməsini gözləyirdi. Bir gün onu səsləndirmək qərarına gəldim. Elə o vaxtdan məndə tara qarşı maraq daha da artdı. Beləliklə də bu musiqi alətinin sirlərini daha dərindən öyrənmək üçün musiqi təhsili almaq qərarına gəldim.

*– Bu musiqi sənəti ilə neçə ildir məşğul olursunuz?*

– İlk musiqi təhsilimə 1998-ci ildə Babək rayonunun Cəhri kəndində yerləşən musiqi məktəbində başladım. Müəllimim Vüqar Allahverdiyevdən bu ecazkar alətin sirlərini öyrəndim, ilk illərdən tarın mənə nə qədər doğma olduğunu dərk elədim. Artıq başa düşürdüm ki, özümü tarsız təsəvvür edə bilmirəm. Məktəbi bitirdikdən sonra 2004-cü ildə təhsilimi davam etdirmək üçün Naxçıvan Musiqi Kollecinin Xalq çalğı alətləri şöbəsinin tar ixtisasına qəbul oldum. Bu sənətdə öz sözlərini layiqincə demiş iki sənətkardan – gözəl muğam bilicisi Aydın Məmmədlidən və Azərbaycan Respublikasının Əməkdar artisti İmamqulu Əhmədovdan dərs aldım. Kollecdə oxuduğum illər ərzində bir sıra dövlət əhəmiyyətli tədbirlərdə, ələmətdar günlər münasibətilə hazırlanmış konsertlərdə, televiziya verilişlərində çıxışlar etdim. 2007-ci ildə kollecin III kurs tələbəsi olarkən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 84-cü ildönümünə həsr olunmuş konsertdə geniş çıxışım oldu.

20 ildir musiqi ilə məğul oluram. Eyni zamanda 10 illik pedaqoji fəaliyyətim var.

*– Sizə görə tarın sehri nədədir?*

– Tar çox incə bir musiqi alətidir. Bu cür alətə yanaşma tərzində o qədər məsuliyyətli olmalısan ki, o səni, sən də onu anlaya biləsən. Tarın sirri ondadır ki, sən alətlə iki-üç gün ünsiyyətdə olmadınsa, sanki səndən “inciyir”. İllər boyu məşq edir, ifaqabağı alətlə təmasda olmursansa, alətin səndən “incikliyini” konsert vaxtı mütləq hiss edəcəksən.

Tar onu dilləndirmədikcə küsən, dilləndirdikdə insan ruhunu ehtizaza gətirən, sən ona ürəyini verdikcə cavabında sənə ilham bəxş edən və sonsuz imkanları olan musiqi alətidir. Sadaladıqlarım tarın sehrlərinin cüzi bir hissəsidir.

*– Bu musiqi alətinin ecazkarlığında onun hazırlanması da vacib şərtlərdən biridir...*

– Tar üç hissədən ibarətdir. Çanaq hissəsi tut, qol hissəsi cəviz, kəllə hissəsi isə armud ağacından olmalıdır. Hər ağacın özünəməxsus tərkibi olduğu üçün alətin səslənməsinə böyük təsiri vardır. Alətin hissə ölçülərinin usta tərəfindən düzgün hazırlanması böyük önəm kəsb edir. Belə ki, hər hansı alətin hazırlanma prosesində ölçülər düzgün verilməzsə, o alətin istər çəkisində, istərsə də səslənməsində müəyyən qüsurlar özünü aydın büruzə verəcəkdir.

*– Azərbaycan tarı hansı xüsusiyyətlərinə görə fərqlənir?*

– Əsasən, öz geniş imkanları və çalğı texnikasına görə başqa Şərq xalqlarının tarlarından fərqlənir. Azərbaycan tarı Sadıqcanın novatorluğu sayəsində o qədər mükəmməlləşdirilib ki, tarda nəinki milli musiqilərimiz, müxtəlifjanrlı əsərlər, hətta Avropa və dünya bəstəkarlarının əsərlərini də asanlıqla ifa etmək mümkündür.

*– Tara marağı olan, bu sahədə təhsil alan tələbələrə nələri tövsiyə edərdiniz?*

– Tövsiyə edərdim ki, milli musiqi alətimiz olan tarın ürəyəyatımlı, həzin səsindən hər zaman zövq alaraq, ona dost kimi yanaşıb bu sənətin sirlərini daha dərindən öyrənməyə çalışsınlar. Müəllimlərinin verdiyi tapşırıqların öhdəsindən vaxtlı-vaxtında gəlsinlər.

Müsahibim onu da vurğuladı ki, bu gün muxtar respublikada 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, bir Musiqi Kolleci və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi fəaliyyət göstərir ki, bunların hər birində milli alətimiz olan tar tədris olunur. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən musiqi kollektivlərinin tərkibində dövlət tədbirlərində və ələmətdar günlər üçün hazırlanmış konsertlərdə tar aləti ilə ifa olunan musiqilər hər zaman maraqla qarşılanır.

Sonda onu da qeyd edək ki, Naxçıvanımız 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilib. Bütün sahələrdə olduğu kimi, incəsənətin müxtəlif sahələri ilə məşğul olan gənclərimiz hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Bu, onların yaradıcılıq axtarışlarını daha da stimullaşdırır, ictimai həyatın bütün sahələrində aktiv fəaliyyətə sövq edir. Bütün bunlar öz Vətəninə, millətinə, dövlətinə sadiq, dilini, dinini, milli-mənəvi dəyərlərini sevən gənc nəslin formalaşmasında mühüm əhəmiyyət daşıyır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Qol güləşi üzrə birincilik keçirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə fiziki imkanları məhdud şəxslər arasında armresling (qol güləşi) yarışları üzrə muxtar respublika birinciliyi keçirilib.



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Olimpiya sistemi əsasında ikikateqoriyalı çəki dərəcəsində (75-, 75+ kiloqram) keçirilən turnirdə 21 idmançı mübarizə aparıb.

Gərgin keçən idman mübarizəsinin yekununda Turan Hüseynov (75- kiloqram) və Telman Şirinov (75+ kiloqram) öz çəki dərəcələrində turnirin qalibi adını qazanıblar. Vüsal Möhsünlü (75- kiloqram), İlqar Sadiqov (75+ kiloqram) ikinci, Toğrul Əliyev (75- kiloqram), Nahid Qurbanov (75+ kiloqram) üçüncü yerlərə layiq görülüblər.

Qalib idmançılar fəxri diplom və hədiyyələrlə təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**


## Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi

### *dövlət vergi orqanlarına işə qəbul olmaq istəyən vətəndaşlar üçün müsabiqə elan edir*

Dövlət vergi orqanlarına xidmətə qəbul “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”yə və “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”yə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu 19 fevral 2018-ci il tarixdən 16 mart 2018-ci il tarixədək aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri nazirlikdə yaradılmış komissiyaya təqdim etməlidirlər:

*1. Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş formada ərizə (blank Vergilər Nazirliyi tərəfindən verilir)*

*2. 3x4 santimetr ölçüdə 2 ədəd (ağ fonda) fotoşəkil*

*3. Ali təhsil barədə diplom (xarici ölkədə təhsil almış namizədlərin diplomları qanunamüvafiq qaydada nostrifikasiya olunmalıdır)*

*4. Əmək kitabçasının əsli və ya təsdiq olunmuş surəti (son iş yeri barədə qeydin olması şərti ilə)*

*5. Şəxsiyyət vəsiqəsi*

*6. Hərbi bilet*

Sənəd qəbulu zamanı məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən və üzərindən məhkumluğu götürülməyən və ya ödənilməyən vətəndaşların sənədləri qəbul edilmir. Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqədə iştiraka, bir qayda olaraq, iqtisadiyyat, hüquq və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsilə malik, yaşı 35-i keçməmiş vətəndaşlar buraxılırlar.

Müsabiqəni müvəffəqiyyətlə keçmiş namizədlərə aşağıda göstərilən 22 sayda vakant yer üzrə iş təklif ediləcəkdir:

*1. Babək Rayon Vergilər Şöbəsi – 2 yer*
*2. Şərur Rayon Vergilər Şöbəsi – 2 yer*
*3. Ordubad Rayon Vergilər Şöbəsi – 5 yer*
*4. Culfa Rayon Vergilər Şöbəsi – 3 yer*
*5. Şahbuz Rayon Vergilər Şöbəsi – 4 yer*
*6. Sədərək Rayon Vergilər Şöbəsi – 2 yer*
*7. Kəngərli Rayon Vergilər Şöbəsi – 4 yer*

*Qeyd:* ***Müsabiqəni müvəffəqiyyətlə keçmiş, sahibkarlıq fəaliyyəti ilə məşğul olan namizədlər fəaliyyətləri ləğv olunmadan işlə təmin olunmurlar. Namizəd ona təklif olunan vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.***

Boş yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər.

***Əlaqə telefonu: 545-68-04***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqə elan edir*

*1. Riyaziyyat və informatika kafedrasının müdiri – 1 yer; 1 ştat, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətinədək qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev Prospekti 1,***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: 545-32-02***
***Rektorluq***

### *İtmişdir*

Seyidli Mirfariz Etiqad oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Sadiqov İlqar Beytulla oğlunun adına Naxçıvan şəhəri, Heydər Əliyev prospektində yerləşən 3 nömrəli binanın 1-ci girişinin 1-ci və 2-ci mərtəbəsindəki qeyri-yaşayış sahəsinin texniki pasportu və 0019733 nömrəli reyestrdən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Nəhəcir kəndində yaşamış Əbilov Məzəddin Baba oğlunun adına olan JN-110A inventar nömrəli 10609018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 145